# MƏHƏMMƏDHÜSEYN ŞƏHRİYARIN “HEYDƏRBABAYA SALAM” POEMASINDA TƏBİƏT PEYZAJI

***Ayşən Əsəd qızı Rəsulova***
*Azərbaycan Respublikasının Təhsil İnsitutu, Təhsilin nəzəriyyəsi və tarixi şöbəsi, böyük elmi işçi*
*ayshan.rasulova@arti.edu.az*

Məhəmmədhüseyn Şəhriyar Azərbaycan ədəbiyyatının sayılıb-seçilən, görkəmli nümayəndələrindəndir. O, bədii yaradıcılığı ilə vətənpərvərliyi üst-üstə düşən əsl mütəfəkkir şairdir. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müsahibələrin birində M.Şəhriyarı ən çox sevdiyi şair adlandırmış, onun poetik yaradıcılığını yüksək qiymətləndirmişdir: “Şəhriyar hər şeydən öncə son dərəcə qüdrətli bir şair və şəxsiyyətdir. Şəhriyar ədəbi irsinin bədii və fəlsəfi siqləti onun bəşəri konsepsiyasındadır. Qüdrətli şairin əsərləri bizi bu gün də yazıb-yaratmağa, gələcəyə nikbin gözlə baxmağa, bir sözlə, birləşməyə səsləyir” (3, s.357-358).

Şəhriyar novator şair kimi dərindən dərk etmişdir ki, “yenilik üçün hər şeydən əvvəl, incə, lətif anlayışlardan (ifadələrdən) çağlayan bir bulaq kəşf olunmalıdır”. Onun fikrincə, “...yenilik cəhddən deyil, elmdən doğulur”. O, haqlı olaraq demişdir ki, “...şairin öz hissiyyatı hərəkətə gəlməsə, özgələrinin də hissiyyatını coşdura bilməz” (4, s.10, 11).

Şəhriyar fars poeziyası ilə Azərbaycan şeiri arasında, “Heydərbabaya salam” poeması isə Azərbaycan bayatıları ilə klassik poeziya nəhri üzərində salınmış möhtəşəm körpüdür. Şair “Heydərbabaya salam” poemasından başqa, “Behcətabad xatirəsi”, “Səhəndim”, “Türkün dili”, “Döyünmə-söyünmə”, “Qaranlıq gecələr”, “Getmə, tərsa balası”, “Qardaşımın məzarı”, “Hara qaçsın insan?”, “Əzizə can”, “Xan nənə”, “Yalan dünya”, “O taydan gələnə”, “Alnımın yazısısı” və digər əsərlərini də Azərbaycan dilində yazmışdır.

Heydərbaba dağına canlı xüsusiyyətlər verən şair özü bu əsərini nə üçün məhz dağa müraciətlə yazmasının səbəbini belə izah etmişdir: “Dağ göylərə yaxındır. O, təbiətin şah əsərlərindən biridir. Dağ tarixin əbədi olaraq görən açıq gözüdür. O, vətəndə baş verən hadisələri seyr edərək öz sinə dəftərinə yazır. Şairin göylərə qalxan nalələrini əks etdirib bütün yer üzünə yayaraq hamının qulağına çatdırmağı təkcə o bacarır”.

Şəhriyar Səhəndin, Savalanın ucalığını və məğrurluğunu yaddaşına həkk etmiş, ayrı-ayrı şəxslərin obrazlarını, onların vaxtilə demiş olduğu sözləri, xalqın milli adət və ənənələrini uşaqlıq illərində ayaqyalın gəzərkən hətta ayağına dəyən daşın yerini belə hafizəsində saxlamışdır. Şair uşaqlıq illərində gördüklərini götürmüş, onları ələkdən keçirdikdən sonra sapa düzərək böyük bir xatirə silsiləsi yaratmışdır.

Poema “Heydərbaba dağı”na müraciətlə başlanır. Heydərbaba dağına müraciətlə ildırımın çaxmasını, selin gəlməsini, suların axmasını, qızların sıraya düzülüb bu mənzərəyə tamaşa etməsini təsvir edən şair bu şövkəti, cah-cəlalı, gözəlliyi, eli salamlayır.

Peyzaj yaratmaq ustası kimi tanınan, görkəmli rus yazıçısı Mixail Prişvin yazırdı: “Mən təbiət barədə yazsam da, daim insanlar barədə düşünürəm”. Doğrudan da, bütün dünyanın peyzaj ustaları təbiətin əsrarəngiz mənzərələrini yaradanda istər-istəməz insan haqqında düşünmüş, öz duyğu və düşüncələrini təbiət lövhələri fonunda əks etdirməyə çalışmışlar” (7, s.340).

Güney Azərbaycan relyefində yaranmış dağlardan biri olan Heydərbaba əsərin poetik qəhrəmanıdır, şairin fikir mübadiləsi aparması üçün seçilmiş obyektdir. Şair qəhrəmanına müraciətlə bütün əhvalatları onun “qulağına” söyləyir, gileylənəndə də, tərif edəndə də üzünü Heydərbaba dağına tutur. Şair təbiətin ayrı-ayrı komponentləri ilə bağlı xatirələrindən istifadə edərək sevincini onunla bölüşdürür.

*Heydərbaba, yolum sənnən kəc oldu,*
*Ömrüm keçdi, gələmmədim, gec oldu,*
*Heç bilmədim gözəllərin necoldu,*
*Bilməz idim döngələr var, dönüm var,*
*İtkinlik var, ayrılıq var, ölüm var (6, s.38).*

İlahi xüsusiyyətə malik bu dağ sanki şairi maqnit kimi özünə cəlb etmiş, onun yetkin daxili dünyasının özülündə olan uşaqlıq təəssüratının yarım əsrə yaxın bir dövrünü əhatə etmişdir.

Vətənin doğma guşəsinə qayıtmış şair keçmişini, uşaqlıq illərini, atasını, bir sözlə, ən gözəl və yadda qalan günlərini xatırlamağa başlayır.

*Mənim atam süfrəli bir kişiydi,*
*El əlindən tutmaq onun işiydi,*
*Gözəllərin axıra qalmışıydı,*
*Ondan sonra dönərgələr döndülər,*
*Məhəbbətin çıraqları söndülər (6, s.45).*

Hər yaşayış məntəqəsinin oğul-uşağını başına toplayan bir qibləgah var. İllər keçir, bu uşaqların, yeniyetmələrin, gənclərin ömrünün müxtəlif çağları bir-birini əvəz edir. Lakin onların uşaqlıq illərində oynadıqları, əyləndikləri həmin yer göz qarşısından çəkilmir, yaddan çıxmır.

Şəhriyarın da uşaqlıq qibləgahı Heydərbaba dağı olub. Odur ki, şair Vətəndən ayrı olanda da, Vətənə qayıdanda da ilk hesabatını Heydərbabaya vermiş və olub-keçənləri doğma dağdan soruşmuşdu. Heydərbaba əsrlərin şahidi kimi çox şeylərdən xəbərdar olduğu və çoxbilmişlər cərgəsində durduğu üçün şair məhz onu suala tutmuşdur.

*Xoşginabı yaman günə kim salıb?*
*Seyidlərdən kim qırılıb, kim qalıb,*
*A Mirqafar dam-daşını kim alıb?*
*Bulaq genə gəlib gölü doldurur?*
*Ya quruyub, baxçaları soldurur? (6, s.45)*

*Heydərbaba, səndə dəfinələr var,*
*Dağlar vədiəsi xəzinələr var,*
*Amma sənə bənzər də sinələr var,*
*Bu sinələr dağlar ilə danışır,*
*Dağlar kimi göylər ilə qonuşur (6, s.54).*

Ustad Şəhriyarın bu sətirləri fikir xəzinəsidir. Şair birinci iki misrada Heydərbabaya iki mənada müraciət edir. Burada şair onda dəfinələrin, xəzinələrin olduğunu dağın üzünə deyir. İkinci, şair dağı ideya, rəvayət, əfsanə, düşüncə məzmunlu canlıya – insana çevirir. Ustad şair dağlara min illərlə onun sinəsində gəzmiş insanların yaddaş qayası kimi baxır. Doğrudan da dağlar türkdilli xalqların dağı-aranı, qışı-yayıdır. Dağlar ata-babaların tərcümeyi-halını öz sinəsində saxladığı üçün ucadır, məğrurdur, qarlıdır, çiçəkli-çəmənlidir.

Əsərin birinci hissəsində şairin romantik duyğuları, xatirələr, təbiət lövhələri, Novruz bayramı, el adət-ənənələri, xalq yaradıcılığı, kənd adamlarının həyat tərzi, məşğuliyyəti, eyni zamanda xalqın taleyindən narahatlıq, milli birliyə çağırış məsələləri əksini tapmışdır.

Poemanın ikinci hissəsini şair uzun ayrılıqdan sonra 1953-cü ildə Təbrizə - doğma yurdu Xoşginaba qayıtdıqdan sonra yazmışdır. Əsərdə konkret olaraq, çərşənbələrin adı çəkilməsə də, təsvir və tərənnümdən söhbətin hansı çərşənbələrdən getdiyini bilmək olur. Məsələn, “Sellər, sular şaqqıldayıb axanda, qızlar ona səf bağlayıb (yəni sıraya düzülüb) baxanda” misralarında qızların su üstünə getməsi, yığışmasından bəlli olur ki, şair burada “su çərşənbəsinə” işarə edir və ya “Bayram yeli çardaqları yıxanda” misrasından aydın olur ki, şair “Yel çərşənbəsindən” söz açıb.

“Heydərbabaya salam” poemasının qanına-canına hopmuş füsunkar təbiət Təbrizin, şairin doğma kəndinin və onun böyük Vətəninin ilahi gözəlliyidir. Şair poemada təbiətdən, onun ayrı-ayrı komponentlərindən şeirin daxili dünyasını zənginləşdirmək üçün istifadə etmişdir. “Heydərbabaya salam”da doğma təbiətin iqlimindən, relyefindən, coğrafi adlarından, heyvanat aləmindən, bitki örtüyündən, çaylarından geniş bəhs olunur.

Şəhriyar bədii obrazların, o cümlədən vaxtilə tanıdığı, təsadüf etdiyi ayrı-ayrı şəxslərin, qoca və cavanların, uşaq və körpələrin, qadın və qızların daxili dünyasını açmaq üçün təbiətdən məharətlə istifadə etmişdir. Şair ayrı-ayrı təbiət hadisələrinin əmələgəlmə, inkişafetmə və başaçatma proseslərini gözəl bildiyi üçün bədii obrazların daha zəngin və güclü alınması məqsədilə onlardan faydalanmışdır.

M.Şəhriyar öz yaradıcılığında Günəşdən, Aydan, ulduzlardan, onların şüasından poetik qida almışdır:

*Heydərbaba, ağacların ucaldı,*
*Amma heyif, cavanların qocaldı,*
*Toxluların arıqlayıb acaldı,*
*Kölgə döndü, gün batdı, qaş qərəldi,*
*Qurdun gözü qaranlıqda bərəldi (6, s.44).*

Günün batması ilə əlaqədar yaranan təbii mənzərəni bir misrada birləşdirmək Şəhriyar istedadı tələb edir: "Kölgə döndü, gün batdı, qaş qərəldi..." Qaş qaralandan sonra insanın qarşısına çıxan qurdun gözündə olan fosfora bənzər maddə işıq saçır. Qurdun bir cüt gözünün qaranlıqda parıldaması (Şəhriyarda "bərəlməsi" kimi verilmişdir) xüsusi bir mənzərə yaratmaqla insanın canına qorxu salır...

Şəhriyar Yer üzündəki qanunsuzluğu, hərc-mərcliyi, ədalətsizliyi aradan qaldırmaq üçün ilahi qüvvəyə müraciət edir ki, bəzi insanların yaratdığı şeytan qurğusunu dağıtsın:

*Bir soruşun bu qarğınmış fələkdən,*
*Nə istəyir bu qurduğu kələkdən?*
*Deynə, keçirt ulduzları ələkdən,*
*Qoy tökülsün, bu yer üzü dağılsın,*
*Bu şeytanlıq qurğusu bir yığılsın! (6, s.47).*

Bu misralarda şair fələyi də qarğış edilmiş adlandırır və bu haqsızlıq dünyasında onu da günahkar sayır.

"Heydərbaba"da ilin bütün fəsillərinə müraciət edilir, hər birinə ayrıca münasibət göstərilir. Yaz torpağın oyandığı, təbiətin yeniləşdiyi, xeyirxahlığın baş qaldırdığı bir fəsildir. Şair baharı hər şeyin qiymətini verən fəsil adlandırır. Yay isə meyvələrin, kənd təsərrüfatı məhsulunun yetişməsini təmin edən ən qızmar fəsil sayılır. İlin yay fəslinə müsbət bir təbii obraz kimi baxılır. Yayın bərəkəti payıza keçdiyindən bu fəsil məhsuldar fəsil adlanır. Lakin payızda təbiətin xəzan dövrü başlayır. Yaşıl yarpaqlar tədricən əlvan don geyir və qışın ilk ayına doğru yarpaqlar

tökülür. Bu mənada payız ömrün xəzan fəsli adlanır. Qış isə bədii obraz kimi mənfi məna kəsb edir.

Şəhriyar Təbriz şəhərinin təxminən 30 kilometrliyində yerləşən, yayda suyu quruyaraq azalan Quru göldə üzən qazları Heydərbabanın yadına salır. O, ilin qış fəslində dağlardakı gədiklərdən əsən sazaqların çıxardığı səsi saz səsinə, payız və yaz fəsillərində kəndin kövşənini isə ən mənzərəli filmə bənzədir. Şair həmin mənzərəni bədii çalarlarla oxucunun gözü önündə canlandırır.

Qışın soyuq günlərindən birində qarı nənə gecə nağıl söyləyərkən:

*Külək qalxıb qap-bacanı döyəndə,*
*Qurd keçinin şəngülüsün yeyəndə, -*

dedikdə şair dönüb yenidən uşaq olmağı, həyatda bir gül olub açdıqdan sonra solmağı arzulayır. Həmin illərin şirinliyi şairi öz ardınca çəkərək körpəlik, uşaqlıq çağlarına aparır.

İnsan qəribliyə düşəndə nigaranlıq içində çırpınır, çox kövrək olur. Uzaq düşdüyü eli ilə qovuşmasına heç bir ümid yeri olmayan bu adamı ağlatmaq üçün ehtiyatsız deyilmiş bircə söz kifayətdir. Belə halda həsrətlilər bir-biri ilə qovuşduqda göz yaşı axıdırlar. Lakin intizarla formalaşan və ilk görüşdə asanlıqla tökülən göz yaşlarının kökündə sevinc hissi dayanır.

Şair yuxarıda deyilənləri birinci üç misrada belə ümumiləşdirir:

*Bir uçaydım bu çırpınan yelinən,*
*Bağlaşaydım dağdan aşan selinən,*
*Ağlaşaydım uzaq düşən elinən...*

Həmin şeirin son iki misrasında şair qədd-qamətini düzəldərək, səsinə qətiyyət verərək deyir:

*Bir görəydim ayrılığı kim saldı?*
*Ölkəmizdə kim qırıldı, kim qaldı?*

Şəhriyarın "Heydərbabaya salam" poemasının hər bir bəndi poeziyamıza böyük töhfədir. Şəhriyar misralarının hər birinin daxili dünyasına vardıqda fikir insanı çəkərək çox uzaq keçmişə, bu günə və ya gələcəyə doğru aparır.

Azərbaycan xalqı arasında duman qəm, kədər gətirən bir təbiət hadisəsidir. İctimai-siyasi quruluş xalqın istədiyi kimi, ürəyincə olmadıqda bir çox şairlər həmin ab-havanı dumana bənzədirlər. Ağır güzəranı, sosial ziddiyyətləri el dilində oxucuya çatdırmaq məqsədilə Şəhriyar yazmışdır:

*Heydərbaba, göylər bütün dumandı,*
*Günlərimiz bir-birindən yamandı,*
*Bir-birizdən ayrılmayın, amandı,*
*Yaxşılığı əlimizdən alıblar,*
*Yaxşı bizi yaman günə salıblar! (6, s.47)*

Bu misralarda şah rejimi dövründə İranda xalqın ağır həyat tərzi ürək ağrısı ilə təsvir edilir. Məhz yaşamaq həvəsini saxlamaq naminə şair adamları birliyə, vəhdətə çağırır.

Müəllif bənzətmənin əsas tərəfini – insanı göstərmir, insana xas olan görmək, danışmaq bacarığını bənzəyənə köçürür. "Danışan" Heydərbaba deyir:

*Bu nə səsdi, sən aləmə salıbsan,*
*Gəl bir görək özün harda qalıbsan.*

Şimaldakı qardaşlarının da çətin vəziyyətini bilən şair onların dərdinə şərik çıxmaq istəyir. "Dağ" obrazı poemada vətənin simvoludur.

Azərbaycan poeziyasında bədii obrazın daxili dünyasını açmaq məqsədilə şairlər onun gözəlliyini, incəliyini, habelə igidliyini, boy-buxununu, flora və faunanın ayrı-ayrı növlərinə bənzətmiş, yaxud onlarla müqayisə etmişlər. Al yanaqlı qızlar laləyə, uca boylu gözəllər çinara, həddi-buluğa çatmış qızlar qönçəyə, cəsurlar və igidlər şirə, pələngə, qartala, çevik qəhrəmanlar qırğıya, bənzədilmişdir. Bu Şərq ənənəsinə, milli ənənəyə ustad Şəhriyar da sadiq qalmışdır. O, "Heydərbabaya salam" poemasında doğulub boya-başa çatdığı el-obanın, dağ və düzlərinin florasını, heyvanat aləmini, onların ayrı-ayrı növlərini özünəməxsus ustalıqla tərənnüm etmişdir.

Təbiətin gözəlliyi onun rəngarəngliyində, mənzərələrinin müxtəlifliyindədir. Şəhriyar şeirində poeziya ilə təbiət, real həyatda olduğu kimi, dialektik vəhdət təşkil edir. "Heydərbabaya salam" poemasında Güney Azərbaycan diyarının novruzgülü,

qarçiçəyi, gül qönçəsi, bulaqotu, yarpızı, sünbülü, bağ-bağçası, çəməni, buğdası, alçası, alması iydəsi və digər məhsulları özünün poetik ifadəsini tapmışdır.

Şəhriyar yaratdığı təbiət lövhələrindən birində yazmışdır:

*Heydərbaba, sulu yerin düzündə,*
*Bulaq qaynar çay-çəmənin gözündə,*
*Bulaqotu üzər suyun üzündə,*
*Gözəl quşlar ordan gəlib keçərlər,*
*Xəlvətləyib bulaqdan su içərlər.*

Bu şeir parçasında deyilmiş fikirləri təsəvvürdə canlandırdıqda göz önündə geniş bir mənzərə açılır: sulu düz, çay-çəmən, oğrun-oğrun bulaq suyundan içən köçəri quşlar...

Heydərbabaya tərif deyən və həm də ona bir növ hesabat verən şair "Dörd bir yanın bulaq olsun, bağ olsun" misraları ilə dağa öz xoş arzularını bildirir. Bulaq və bağ dağın zənginliyinin, məhsuldarlığının, həm də gözəlliyinin göstəricisidir. Şair Heydərbaba dağını canlı bir varlıq kimi qəbul edərək onun bütün işlərindən razı qaldığını bildirir və dağa "üzün ağ olsun", -deyir. Ustad Şəhriyar Heydərbaba dağını həyatda yalqız və ya çılpaq görmək istəmədiyindən ona gözəlliyini artıra biləcək təbiət ünsürləri, yəni bulaq, çəmən, çiçək arzu edir.

Təbriz bölgəsində yaz aylarında, xüsusilə Novruz bayramı ərəfəsində güclü küləklər əsir, tez-tez yağışlar yağır. Bu dövrdə həm də novruzgülü açır, qarçiçəyi üzə çıxır. Deyilənlər Şəhriyar poemasında belə səslənir:

*Bayram yeli çardaxları yıxanda,*
*Novruzgülü, qarçiçəyi çıxanda,*
*Ağ buludlar köynəklərin sıxanda,*
*Bizdən də bir yad eləyən sağ olsun,*
*Dərdlərimiz qoy dikəlsin, dağ olsun.*

Şair "ağ buludlardan yağış yağır" demək əvəzinə ağ buludlar köynəyini sıxdığı üçün yağış yağdığını poetik bir dillə oxucuya çatdırır,

Şair poemada heyvanat aləmindən geniş istifadə etməklə el-obasının təbiətini, canlı faunasını – kəklikləri, qazları, bildirçinləri, qırğını, gecəquşunu, göyərçini,

bayquşu, qaraquşu, durnanı, dovşanı, canavarı şeirə gətirir: "Bayram idi, gecəquşu oxurdu", "Göyərçinlər dəstə qalxıb uçallar", "Bayquşun da dar olmasın qəfəsi", "Burda bir şir  darda qalıb bağırır".

"Heydərbabaya salam" poemasında insan əxlaqını saflaşdıran çox zəngin ifadələr, bəzən atalar sözü qədər dəyərli sözlər, fikirlər vardır:

*"Bilsinlər ki, adam gedər, ad qalar,*
*Yaxşı-pisdən ağızda bir dad qalar".*

Şair hələ sağlığında onu yad edənlərə razılığını bildirir, onlara "sağ olsunlar" – deyir. Şəhriyar daim yad edilir. Onun poetik yaradıcılığı yalnız "Heydərbabaya salam"dan ibarət olsaydı belə, onun öz xalqının qəlbində əbədi yaşamağa tam haqqı çatardı.

Poemanın ikinci hissəsində Heydərbabaya dönmüş oğlun indi gördükləri, uzun sürən ayrılıqdan sonra vətəndə duyğu və düşüncələri təqdim edilir. Vətənin şair oğlu gileylərinin haqlı olduğunu bilsə də "Gileydən nə çıxar" düşünərək belə deyir:

*Heydərbaba, alçaqların köşk olsun,*
*Bizdən sonra qalanlara eşq olsun,*
*Keçmişlərin gələnlərə məşq olsun,*
*Övladımız məzhəbini danmasın,*
*Hər içiboş sözlərə aldanmasın (6, s.56)*

"Heydərbabaya salam" poemasının obrazlı təsvir, tərənnüm vasitələri əlvan və zəngindir. Heydərbaba dağından tutmuş bütün təbiət şəxsləşdirilir, canlılara, insanlara xas xüsusiyyətlər təbiətə köçürülür. Heydərbaba insan kimi dil açıb danışır, həsrətli oğul görüb ondan hal-əhval tutur, oğul salamını, oğul xahişini eşidir.

Poemada "Vətənsiz xalq, xalqsız vətən ola bilməz" dilemması bütün lirik süjet boyu açılır, həm şimalda, həm cənubda olan insanların soy birliyi, ömür-gün birliyi, tarixi birliyi qürurla təsvir-tərənnüm olunur. Mövzusuna, məzmununa, dil gözəlliyinə görə nadir olan bu əsər Azərbaycan şeir tarixində görünməmiş bir yenilik oldu. İki dəfəyə yazılıb iki hissəyə bölünmüş "Heydərbabaya salam" poeması əslində bölünməz, vahid süjeti olan misilsiz əsərdir. Onun bölünməzliyi – bütövlüyü

ana-oğul, vətən-vətəndaş, sələflər-xələflər vəhdətindədir, nəsildən-nəslə keçib ölməyən milli ruh birliyindədir.

Poemada xatirələr silsiləsi elə ardıcıldır ki, biri o birini elə yönəldir və inkişaf etdirir ki, bu ardıcıllıq özü sanki süjeti əvəz edir.

## ƏDƏBİYYAT


1.Beqdeli Q. Məhəmmədhüseyn Şəhriyar. Bakı: "Azərbaycan Dövlət Nəşriyyatı", 1963, 40 s.

2.Bülluri H. Məhəmmədhüseyn Şəhriyar. Bakı, "Elm" nəşriyyatı, 1984, 156 s.

3.Əliyev H. Qayıdış (1991-1993-cü illər). Bakı: "Azərbaycan" nəşriyyatı, 1996, 792 s.

4.Şəhriyar M. Aman ayrılıq (poema və şeirlər) Bakı: Yazıçı, 1981, 106 s.

5.Şəhriyar M. Heydərbabaya salam. Azərbaycan Dövlət Nəşriyyatı,1964, 23 s.

6.Şəhriyar M. Seçilmiş Əsərləri. Bakı, Avrasiya press, 2005, 478 s.

7. Yusifoğlu R. Azərbaycan poemasının sənətkarlıq xüsusiyyətləri. Bakı, 450 s.

8.https://www.academia.edu/40269518/